Yarandığı və fəaliyyətə başladığı ilk günlərdə cəmi 18 şagirdi olan Yaycı kənd məktəbi uzun bir inkişaf yolu keçmişdir.

Yaycı kənd məktəbi təsis edildiyi gündən şəriət dərslərini Molla Kazım İsmayılov demişdir.

Arxiv sənədlərində 1896-1918-ci illərdə Məmmədhəsən bəy Qulubəy oğlu Əlixanov, Əbdüləzim Rüstəmov, X.Akopov, Pərviz xan Məmməd oğlu Kəlbalıxanov (Məmmədsadıx xanın nəvəsi – F.C.) məktəbin nəzarətçisi (müdiri), Molla Kazım İsmayılov, X.Akopov, Molla Allahverdi Əzimov, Molla Ələkbər Qasımov və başqaları müəllim kimi fəaliyyət göstərmişdir.

Arxiv sənədlərini vərəqlədikdə Yaycı kənd məktəbinə yeni bina tikintisi ilə əlaqədar Yuxarı Aza kənd icmasının kəndxudası ilə Yaycı kənd sakinlərinin birgə keçirdikləri iclasın qətnaməsinə rast gəldik. Həmin sənəddə yazılmışdır: «23 avqust 1898-ci il. Biz aşağıda imza edən Naxçıvan qəzası Yuxarı Aza icmasının kəndxudası ilə Yaycı kənd sakinləri Yuxarı Aza kəndxudasının Naxçıvan qəzası IV sahəsinin polis pristavının 28 iyul tarixli 1566 №-li təklifinə əsasən bu günki tarixdə iclasa yığışmışıq və gələcək il Yaycı kəndində tikiləcək Yaycı kənd məktəbinin binası üçün sahə ayrılması məsələsini müzakirə etdik.

Qərara aldıq: Məktəb binası və həyəti üçün təmənnasız olaraq həmkəndlilərimiz Əhməd xan Kərbəlayi Abdulla oğlunun, Nəcəf Hacı Məmməd oğlunun, Kərbəlayi Abdulla Kərbəlayi Mirzə Qasım oğlunun, Məmmədəli və Heydər Musa oğullarının sərhədləri aşağıdakı kimi olan torpaqları təmənnasız olaraq Yaycı məktəbinə veririk.

Şərqdən: Heydər Molla Musa oğlunun şumluq torpağı, ictimai kanal və Məşədi Allahverdi, Məşədi Bədəl xan oğlunun bağı; Cənubdan: Kərbəlayi İmam Qulu oğlunun əkin sahəsi; Şimaldan: icmanın boş torpaqları; Qərbdən: Yaycı kəndindən poçt yoluna gedən yol. Torpağın sahəsi: eni 163 arşın, uzunluğu 210 arşın.

Torpağın bağışlanmasında adı çəkilən şəxslər etiraz etməyiblər və onlara həmin torpaqların müqabilində pul və başqa torpaqlar verilib. Bunun üçün də bu barışdırıcı hökm tərtib olunub. Bu hökmə 150 sakin imza atıblar.

Əsli ilə düzdür. Yuxarı Aza icmasının kəndxudası: (imza, möhür).

Yaycı kənd məktəbinin nəzarətçisi (imza)».

Məktəb tikintisi ilə bağlı bu bağlanmış «Barışdırıcı hökm»ün qərarı ilə 1900-cu ildə 815 kub arşın sahəsi olan, 6 sinifdən ibarət, 108 şagird yerlik yeni məktəb binası tikilərək müəllim və şagird heyətinin istifadəsinə verilmişdir.

Yeni məktəbdə 1900-cu dərs ilində I şöbədə 3 şagird, II şöbədə 4 şagird və III şöbədə 11 şagird təhsil almışdır.

1900-1901-ci dərs ilində məktəbin kitabxanasında 61 adda 120 cild kitab olmuşdur ki, bunlardan da 22 adda 41 kitab dərs vəsaitləri idi. 1905-1906-cı dərs ilində isə məktəbin kitabxanasında 181 adda 604 kitab olmuşdur.




*Şeyxəli xan Kəlbalıxanovun oğlu Məmmədsadıx xanın mülk və torpaqları sayılan Yaycı (Culfa rayonunun – F.C) kənd indiki orta məktəbi Kəlbalıxanovların səyi nəticəsində kənd məktəblərinin açılması haqqında 1874-cü il nizamnaməsinə əsasən 1896-cı il 10 dekabr tarixdə bir sinifli kənd məktəbi kimi açılmışdır.*

1904-1905-ci dərs ilində məktəbdə 26 şagird təhsil almışdır ki, bu şagirdlərin 2 nəfəri qız idi. Təhsil alan şagirdlər: Fətəli xan, Əbülfət xan, Məmməd xan Kəlbalıxanovlar, İrza Abdinov, Vəli Abbasquliyev, Abbas Məmmədov, Şükür Şükürov, Hüseyn Hüseynov, Həsən Heydərov, Murad Heydərov və başqaları. Qız şagirdlər: Nüşafərin və Münəvvər Əlixanovlar idi.

Bu qızlar 1905-ci ildən 1908-ci ilin oktyabrına kimi Yaycı kənd məktəbinin nəzarətçisi (müdiri) işləmiş Məmmədhəsən bəy Əlixanovun qızları idi.

1905-1906-cı dərs ilində isə məktəbin I şöbəsində 18 nəfər şagird, II şöbəsində isə 10 nəfər təhsil almış, 16 nəfər şagird məktəbə qəbul edilmiş, 3 nəfər şagird isə məktəbi bitirmişdir.

11 sentyabr 1908-ci il tarixdə İrəvan quberniyası Xalq Məktəblərinin əmri ilə Yaycı kənd məktəbinə Mirzə Bağır Əliyev məktəbin nəzarətçisi (müdiri) vəzifəsinə təyin edilir.

Məktəbin keçmiş nəzarətçisi Məmmədhəsən bəy Əlixanovdan təhvil almaq üçün Mirzə Bağır Yaycı kəndinə gəldikdən sonra 2 oktyabr 1908-ci il tarixdə İrəvan quberniyası Xalq Məktəblərinin müdirinə belə bir raport göndərir: «11 sentyabr tarixli 3364 №-li tapşırığınıza əsasən mən 15 sentyabrda Yaycı kəndinə gəlmişəm. Burada keçmiş nəzarətçi Əlixanovu yerində tapmadığından yerli xan Kəlbalıxanovun evində qaldım. 25 sentyabr tarixdə cənab Əlixanov Naxçıvandan qayıtdıqdan sonra mənə bildirdi ki, o heç cürə məktəbi təhvil verə bilməz. Çünki Siz həzrətləriniz tərəfindən guya ona tapşırılıb ki, müdir cənabları 1 oktyabr tarixədək, yəni məzuniyyətdən qayıdanadək məktəbi heç kimə təhvil verməsin. Uzun

müddət keçməzdən sonra, nəhayət mən 1 oktyabr tarixdə məktəbi verməsi üçün yenə Əlixanova müraciət etdim. Lakin o bu dəfə də məktəbi təhvil verməkdən imtina edib bildirdi ki, o oktyabr və noyabr aylarının da məvacibini almaq üçün məktəbdə oturmalıdır. Bunları nəzərinizə çatdıraraq Siz həzrətlərdən xahiş edirəm ki, kasıb uşaqların vəziyyətini nəzərə alaraq Əlixanovun məktəbi təhvil verməsi üçün məcbur edilməsi barədə sərəncam verilsin.

Əlavə etmək istəyirəm ki, Əlixanov tərəfindən şəxsi heyətin sentyabr ayı üçün 49 manat 66 qəpik məbləğində məvacib alınıb.

Yaycı kənd məktəbinin nəzarətçisi: (imza) Əliyev».

Mirzə Bağır 10 oktyabr 1908-ci ildə İrəvan quberniya Xalq Məktəblərinə göndərdiyi ikinci raportunda isə belə yazır: «11 sentyabr tarixli 3364 №-li tapşırığınızı yerinə yetirərək Siz əlahəzrətlərə bildirirəm: Baxmayaraq ki, mən 15 sentyabr tarixdən Yaycı kəndindəyəm, məktəbi yalnız 5 oktyabrda təhvil almışam. Lakin təhvil-təslim qanuni qaydada həyata keçirilməyib, çünki Əlixanov Ordubad şəhərinə tələsirdi. Məktəbin vəziyyətinə gəldikdə isə o çıxılmazdır. Çünki məktəb tamamilə dağılmış vəziyyətdədir.

Məktəbi həm təsərrüfat, həm də təhsil cəhətdən qaydasına salmaq üçün demək olar ki, bütün sinif otaqlarında təmir işləri aparmaq lazımdır. Çünki təmir aparılmasa məktəbdə dərs demək mümkün deyil.

Bunları nəzərinizə çatdıraraq xahiş edirəm məktəbdə cüzi təmir işləri aparmaq üçün 100 manat ayırasınız, çünki xidmətçilərin oktyabr, noyabr və dekabr ayları üçün məvaciblərindən başqa keçmiş nəzarətçi Əlixanov tərəfindən vəsait saxlanılmayıb...

Yaycı məktəbinin nəzarətçisi: (imza) Əliyev».

1909-cu ilin oktyabr ayında İrəvan quberniya Xalq Məktəblərinin inspektoru (Müfəttişi – F.C.) Razumovski Yaycı kənd məktəbini təftiş edib və İrəvan quberniya Xalq Məktəbləri müdirinə təqdim etdiyi təftiş yazısında göstərmişdir: «19 sentyabr 1909-cu ildə Yaycı məktəbini ziyarət etdim və məktəbin müəllimi Mirzə Bağır Əliyevin rus dili və hesab dərslərində iştirak etdim. Dərslər qənaətbəxşdir və tədris işində cənab Əliyevin səy və istəyi görünür. Onun tərəfindən aparılmış təmiri gördüm. Dam rənglənib, döşəmə, pəncərələr, qapılar, tavan rənglənib, müəllimlərin otaqları rənglənib, ayaqyolu tikilib. Təmir layiqincə yerinə yetirilib. Cənab Əliyevin səylərinə görə minnətdarlığımı bildirdim və ümid edirəm ki, o bundan sonra da var qüvvəsi ilə və səylə çalışacaq.

Müfəttiş Razumovski.

İştirak etdi Yaycı məktəbinin nəzarətçisi Bağır Əliyev».

M.B.Əliyev 1911-ci ilin aprel ayına kimi məktəbin nəzarətçisi, həmçinin müəllimi işləmişdir.

1911-ci ilin aprel ayında M.B.Əliyev Yaycı kənd məktəbinin nəzarətçisi vəzifəsindən azad edilmiş və həmin vəzifəyə aprel ayından Əbdüləzim Rüstəmov təyin edilmişdir.

Qısa haşiyə:

Rüstəmov Mirzə Əbdüləzim Talıb oğlu 1889-cu ildə Yelizavetpol quberniyasının Zəngəzur qəzasının Şəki kəndində, kəndli ailəsində anadan olmuş, ibtidai təhsilini molla məktəbində almışdır. Əbdüləzim hələ kiçik ikən atası Talıb vəfat edir. Müstəqil yaşamaq və təhsilini davam etdirmək imkanı olmayan Əbdüləzim Rüstəmov Naxçıvandakı bacısı Nazlı xanımın əri Qurbanəli Şərifov tərəfindən Naxçıvana gətirilərək 1900-cu ildə buradakı şəhər məktəbinə qəbul etdirilir.

Qurbanəli Şərifov öz dövrünün mütərəqqi, hərtərəfli biliyə malik ziyalılarından biri olub. Məmməd Tağı Sidqi, Cəlil Məmmədquluzadə, Eynəli bəy Sultanov və başqa bu kimi görkəmli adamlar ilə yaxından dostluq etmişdir.

1906-cı ildə Naxçıvan şəhərindəki iki dərəcəli məktəbi qurtaran Əbdüləzim Rüstəmov Qurbanəli Şərifovun köməyi ilə xüsusi müəllimlə çalışaraq ibtidai məktəb müəllimliyi adı almaq üçün imtahan verir. Müəllimlik adı alan Əbdüləzim Rüstəmov qəza maarif müfəttişliyi tərəfindən 1907-ci ildə Cəhri kənd rus-tatar məktəbinə müəllim göndərilir. Beş il Cəhri kənd məktəbində müəllimlik edən Əbdüləzim 1911-ci ildə Ordubad nahiyyəsinin Yaycı kənd məktəbinə müdir təyin olunur. Bir neçə ay, yəni oktyabr ayına kimi burada işlədikdən sonra Əbdüləzim Zəngəzur qəzasında öz doğma yurdu olan Şəki kəndinə dəyişilərək orada bir sinifli məktəbdə müəllimlik etmişdir.

1911-ci ilin sentyabr ayında Yaycı kənd məktəbinin nəzarətçisi vəzifəsindən azad olunan Ə.Rüstəmov və Ordubad qəzası Vənənd kənd məktəbinin nəzarətçisi işləmiş və Yaycı məktəbinə nəzarətçi təyin olunan Pərviz xan Məmməd xan oğlu Kəlbalıxanov məktəbi təhvil-təslim edir.

Yaycı birsinifli məktəbi 1912-ci ildə ikisinifli məktəbə çevrilir. Bu haqda aşkar etdiyimiz «Barışdırıcı hökm» bunu bir daha sübut edir. Hökmdə yazılır: «19 yanvar 1912-ci il. Yaycı kəndi. Biz aşağıda imza edən İrəvan quberniyası Naxçıvan qəzası Yaycı kənd sakinləri, 135 nəfər bugünki tarixdə iclasa yığışaraq Yaycı birsinifli məktəbinin ikisinifliyə çevrilməsi məsələsini müzakirə etdik.

Yuxarı Aza icması indi ödədikləri puldan, 1070 manatdan başqa məktəbə pul ödəmək istəmədiklərindən bu məsələnin müzakirəsində iştirak etmir, belə ki, onlar övladlarını bu məktəbə göndərmirlər. Yaycıda isə 12 nəfərin məktəb yaşında olan uşaqları var. Hansılarının ki, valideynləri məmnuniyyətlə onları məktəbə göndərirlər. Lakin Yaycı birsinifli məktəbdə yer olmadığından və birsinifli məktəb şagirdlərə ikisinifli məktəb kimi savad və hüquqlar vermədiyindən cənab müdirdən xahiş edirik ki, Yaycı birsinifli məktəbindən, ikisinifliyə çevrilməsi üçün lazımi sərəncam verilsin. Məktəbdə ikinci sinifin açılması üçün lazım olan mebel və başqa əşyalar almaq üçün biz birdəfəlik olaraq 250 manat ödəməyə razıyıq (imzalar)».



Pərviz xan Kəlbalıxanov 1917-1918-ci tədris ilinə kimi Yaycı ikisinifli məktəbin nəzarətçisi işləmiş və bu tədris ilinə kimi şəriət dərsini Molla Ələkbər Qasımov demişdir. 1911-1912-ci dərs ilində məktəbdə 48 şagird təhsil almışdırsa 1915-1916-cı dərs ilində şagirdlərin sayı 74 nəfər olmuşdur.

Məlum olduğu kimi 1918-1920-ci illərdə ermənilər tərəfindən Azərbaycan xalqına qarşı soyqırım siyasəti keçirilmiş, günahsız insanlara qarşı geniş miqyaslı qətllər törədilmiş, bölgələrində olduğu kimi Naxçıvan, Şərur-Dərələyəz və Ordubad qəzalarının kəndləri talan edilmiş, dağıdılmış və yandırılmışdır.

Xüsusi ilə Andranik Ozanyanın başçılıq etdiyi erməni quldur dəstələri Naxçıvan bölgələri olan Yaycı, Aza, Kərimqulu-Dizə, Sirab, Qahab, Düyülü, Bist və s. kəndlərdə qanlı cinayətlər törətmişdir.

Andranikin ilk təcavüzü 1918-ci ilin iyun ayında Naxçıvan qəzasının Araz çayı kənarında yerləşən Yaycı və Aşağı Aza kəndlərinə olmuşdur.

Andranikin bu təcavüzü haqqında 17 avqust 1918-ci il tarixdə «Borba» qəzeti yazırdı: «...Yaycı kəndi darmadağın edilib, əhalisi qılıncdan keçirilmişdir».

Yaycı kəndinə girən erməni quldurları uşaq, qadın, qoca demədən əhalinin xeyli hissəsini qırmış, canlarını qurtaranlar Naxçıvan bölgəsinin kəndlərinə və Naxçıvan şəhərinə qaçmışlar.

Kənd ermənilər tərəfindən dağıdılmış və yandırılmışdır. Dağıdılan binalardan biri də Yaycı kənd məktəbinin binası idi. Qırılan uşaqların xeyli hissəsi məktəbin şagirdləri idi. Ona görə də 1918-ci ilin sentyabrından 1920-ci ilin oktyabr ayına kimi məktəb fəaliyyət göstərməmişdir.

Erməni daşnakları Naxçıvan, Şərur-Dərələyəz və Ordubad qəzalarından təmizləndikdən sonra Naxçıvan İnqilab Komitəsinin 25 avqust 1920-ci il tarixli dekretinə əsasən Naxçıvanda yaşayan bütün millətlərə pulsuz ibtidai-icbari ümumtəhsil hüquq bərabərliyi verilir və İnqilab Komitəsinin müxtəlif şöbələri ilə yanaşı Xalq Maarif şöbəsi yaradılır. Şöbəyə Naxçıvan bölgəsində yenidən məktəblərin açılması haqda göstəriş verilir. Naxçıvan bölgəsinin başqa kənd məktəbləri kimi Yaycı kənd məktəbi də oktyabr 1920-ci ildən yenidən açılır və Naxçıvan Xalq Maarif şöbəsinin 1 oktyabr 1920-ci il tarixli 9№-li əmri ilə Pərviz xan Məmməd xan oğlu Kəlbalıxanov Yaycı ibtidai məktəbinə yenidən müdir (direktor) təyin edilir.

Pərviz xan Kəlbalıxanov 1929-cu ilə kimi Kəlbalıxanovlar yurdu olan Yaycı kənd ibtidai məktəbinin müdiri vəzifəsində işləmiş və 30-cu illərin repressiya qurbanı kimi bir çox Kəlbalıxanovlar Kəngərlilər kimi sürgün olunmuşdur.

1920-ci ilin axırlarında yenidən ibtidai məktəb kimi açılan Yaycı kənd məktəbi 1930-cu ilə kimi ibtidai, 1930-cu ildən 1938-ci ilə kimi yeddiillik, 1938-ci ildən isə orta məktəb kimi fəaliyyət göstərmişdir.

Məktəbin ilk buraxılışı 1941-ci ildə olmuşdur. Məktəbi 13 nəfər bitirib kamal atestatı almışdır.

Sonrakı illərdə məktəbin direktoru vəzifəsində İsmayıl Ələsgərzadə, Bəhlul Hacıyev, Əlimərdan Əlizadə, S.Ağayev, Nadir Tağıyev və başqaları işləmişdir.

Bu illərdə şagirdlərin təlim-tərbiyəsinə böyük əmək sərf edənlərdən: Məmmədov Abdulla, Kəngərli Şövkət, Rəsizadə Əmir, Səmədov Səməd, Novruzov Novruz, Allahverdiyev Abbas, Məmmədov Rza, Əlixanov Davud, Rzayev Musa, Həşimov Sadıx, Hüseynov İsmayıl, Mahmudov Əlirza, Əliyev Qurban, Kələntərov Hacı, Rzayev Salman, Qasımov Qardaşxan, Qasımova Nabat, Yusifov Yaqub, Ağayev Fikrət, Abdinov Kazım, Abbasova Ümbülbəni, Əsgərova Sevil, Əsgərova Leyla, Həşimova Çimnaz, Abbasova Rübabə və başqalarının adlarını qeyd etmək olar.

Yaycı kənd orta məktəbini 1956-1957-ci dərs ilində 20 şagird, 1957-1958-ci dərs ilində 25 nəfər, 1967-1968-ci dərs ilində 37 şagird, 1970-1971-ci dərs ilində 41 şagird, 1972-1973-cü dərs ilində 49 şagird, 1981-1982-ci dərs ilində 107 şagird bitirərək kamal attestatı almışdır.

1983-1984-cü dərs ilində Yaycı kənd orta məktəbində 869 şagird, 1985-1986-cı dərs ilində 817 şagird, 1988-1989-cu dərs ilində 857 şagird, 1989-1990-cı dərs ilində 882 şagird, 1994-1995-ci dərs ilində 997 şagird, 1997-1998-ci dərs ilində 1043 şagird təhsil almış, onların təlim-tərbiyəsi ilə 60 müəllim məşğul olmuşdur.

2005-2006-cı dərs ilində məktəbdə 781 şagird təhsil almışdır ki, onların təlim-tərbiyəsi ilə 84 nəfər ali təhsilli müəllim, onların da 42 nəfəri qadın məşğul olmuşdur. Bu il məktəbi 84 şagird, bunlardan bir nəfəri fərqlənmə ilə bitirmişdir.

Məktəbin keçmiş məzunlarından: fizika-riyaziyyat elmləri doktoru, EA-nın müxbir üzvü, Azərbaycan Milli EA-nın akademiki Həsən Məmmədbağır oğlu Hacıyevi, geologiya-mineralogiya elmləri namizədi Ramazan İsmayıl oğlu Əliquliyevi, Sosialist Əməyi Qəhrəmanı Məmməd Həsən oğlu Əsgərovu və başqalarını göstərmək olar. Onlar Azərbaycan elminin, mədəniyyətinin, iqtisadiyyatının inkişafında böyük rol oynayıblar. Bu gün də həmin ziyalıların ardıcılları onlarladır. Tibb elmləri doktoru Adil Allahverdiyev, kimyaçı alim Vəli Səfərov, fizika-riyaziyyat elmləri namizədi Səkinə Səmədova, polis polkovniki Hüseyn Allahyarov və başqaları bu məktəbin məzunlarıdırlar.

Tağı Qasımovun adını daşıyan 110 yaşlı Yaycı kənd orta məktəbi həmişə olduğu kimi bu gün də rayonun pedaqoji kollektivlərinin önündə gedir. Gənc nəslin əmək, hərbi vətənpərvərlik və fiziki tərbiyəsi sahəsində yeni uğurlar qazanırlar.

**Fəxrəddin Cəfərov,**
**Azərbaycan Respublikasının Əməkdar mədəniyyət işçisi, tarix elmləri namizədi**